*Tarix boyunca hay xisləti müxtəlif formalarda təzahür edərək geosiyasi dinamikaların ən destabilizəedici elementlərindən biri olub. Regionun sabitliyinə ən böyük maneələrdən biri olan erməni ekspansionist siyasəti əsrlər boyu bölgənin üzərində qara bulud kimi dolaşaraq Cənubi Qafqazın siyasi mənzərəsinə fundamental mənfi təsir göstərib. Azərbaycan isə hər zaman öz suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda hərbi hüquqi, diplomatik və ideoloji müstəvidə mübarizə aparıb. Bu mübarizənin kökləri daha dərinə gedir. Son iki əsr ərzində bölgədə baş vermiş bütün toqquşmaların və geosiyasi çəkişmələrin arxasında erməni fitnəsi dayanıb. XIX əsrin əvvəllərində Cənubi Qafqazda demoqrafik balansı süni şəkildə dəyişdirmək üçün çar Rusiyasının dəstəyi ilə erməni əhalisinin kütləvi şəkildə məskunlaşdırılması uzunmüddətli strateji planın tərkib hissəsi idi. Ermənistanın siyasi və ideoloji konsepsiyası etnik separatizm və terrorçuluq üzərində formalaşmışdır.*



# Ulu Öndərin Ki-Uest zəfəri: erməni fitnəkarlığının önünə dəmir sədd

Birinci Qarabağ müharibəsindən sonra 1994-cü ildə atəşkəs razılaşması əldə edildi. Bu, Cənubi Qafqazda sabitliyin bərpasına imkan yaratdı. 1999-cu ildə Azərbaycan və Ermənistan prezidentlərinin Sədərəkdə görüşü münaqişənin həlli üçün yeni perspektivlər açırdı. Lakin bu görüşdən cəmi 16 gün sonra - 27 oktyabrda Ermənistan parlamentində qanlı terror aktı törədildi. Terrorçu Nairi Hunanyanın başçılıq etdiyi 5 silahlı şəxs tərəfindən törədilmiş terror aktı nəticəsində baş nazir Vazgen Sarkisyan və parlamentin spikeri Karen Dəmirçyan da daxil olmaqla, ölkənin siyasi rəhbərliyində əsas qərarverici fiqurlar olan 8 nəfər öldürüldü. Bu hadisə Qarabağ münaqişəsinin həlli prosesinə ciddi zərbə vurdu. Bir daha hayların sülhün ən böyük düşməni olduqları bəlli oldu.

Keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin həlli hər zaman Azərbaycanın strateji məqsədlərindən biri olub. Dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipindən qaynaqlanan bu hədəf həm beynəlxalq hüquq normalarına əsaslanır, həm də regionda sülhün və təhlükəsizliyin bərqərar olunmasını zəruri edir. Azərbaycan daima sülh danışıqlarına sadiq qalıb, konfliktin beynəlxalq hüquq çərçivəsində həllini tapması üçün çoxsaylı diplomatik təşəbbüslər irəli sürüb. Lakin Ermənistan siyasi arenası bütünlüklə riyakarlıq və geostrateji oyunlarla müşayiət olunurdu. Həm döyüş meydanında, həm də diplomatik masada rəsmi İrəvan destruktiv və manipulyativ mövqeyini qoruyub saxlayırdı.

Bu kontekstdə 2001-ci il aprelin 3-də ABŞ-ın Florida ştatında keçirilən Ki-Uest (Key West) görüşü xüsusi əhəmiyyət kəsb edirdi. Ümummilli lider Heydər Əliyev ABŞ-a işgüzar səfəri 14 gün davam edib. Səfər çərçivəsində 3-6 aprel tarixlərində keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fasiləsiz olaraq 4 gün danışıqlar aparılıb. Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan ABŞ dövlət katibi Kolin Pauellin moderatorluğu ilə ATƏT-in Minsk qrupunun ABŞ, Fransa və Rusiyadan olan həmsədrləri (Keri Kavano, Jan Jak Qayyard və Vyaçeslav Trubnikov) ilə bir araya gəlmişlər. Ümummilli lider Heydər Əliyev görüşdə Azərbaycanın ərazi bütövlüyünün pozulmasını vurğulamış, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icra olunmamasını beynəlxalq hüququn selektiv tətbiqinə nümunə göstərmişdi. Ermənistan tərəfi işğal etdiyi səkkiz rayondan beşini qaytarmaqla konfliktin dondurulmasını təklif edirdi. Lakin bu, fundamental siyasi dilemma yaradırdı: işğalçı dövlət tərəfindən güzəşt kimi təqdim edilən bu təklif əslində separatçı rejimin legitimləşdirilməsinə xidmət edirdi. Bu siyasi paradoks çərçivəsində də dəyərləndirilə bilərdi - özbaşına yaradılmış rejimi beynəlxalq hüquq müstəvisində möhkəmləndirmək cəhdi. Ulu öndər Heydər Əliyev bu plana qarşı prinsipial mövqe nümayiş etdirdi.

Münaqişənin tarixi haqqında ətraflı məlumat verən Heydər Əliyev Azərbaycan torpaqlarına təcavüz olunduğunu və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin yerinə yetirilmədiyini vurğuladı. Minsk qrupunun münaqişənin həlli ilə bağlı təklif etdiyi üç təklifin hər birinin Azərbaycanın maraqlarına zidd olduğunu bildirən ulu öndər bu təkliflərdən birinin Azərbaycan, digər ikisinin isə Ermənistan tərəfindən qəbul edilmədiyini diqqətə çatdırdı. Azərbaycan tərəfindən qəbul olunmayan "ümumi dövlət" təklifinin beynəlxalq hüquq prinsiplərinə zidd olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirdiyini bildirdi: "Həmsədrlərin "ümumi dövlət" təklifini biz qəbul etmədik. Heç bir beynəlxalq-hüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verir. Bu təklif beynəlxalq hüququn prinsip və normalarına tamamilə ziddir. Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirir". Heydər Əliyev Azərbaycanın ayrılmaz hissəsi olan "Dağlıq Qarabağa" Azərbaycanın tərkibində yüksək muxtariyyət verilməsinin mümkün olduğunu qeyd etdi: "Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarə statusu verilə bilər".

Azərbaycanın həmişə sülh tərəfdarı olduğunu və 1994-cü ilin mayında əldə edilən atəşkəsə sadiq qaldığını deyən ulu öndər Ermənistanla Azərbaycan arasında münaqişənin Cənubi Qafqazda sabitliyi pozduğunu bildirərək ATƏT-in Minsk qrupunun daha fəal fəaliyyət göstərəcəyinə və Ermənistanın daha konstruktiv mövqe tutacağına ümid etdiyini vurğuladı: "Təəssüf ki, həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq, danışıqlar prosesinə beynəlxalq hüquq normalarına müvafiq surətdə lazımi təsir göstərməmişlər. Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticələri vermir".

Ümummilli liderin erməni xislətinə qarşı lazımi tədbirlər görməsi Qarabağ münaqişəsini o dövr üçün uğurlu hesab edilən aktiv fazada saxlamağa müvəffəq oldu. Sonralar Robert Köçəryan belə bir etiraf etmişdi: "Mən Ki-Uest görüşünə Heydər Əliyevdən əvvəl gəlmişdim. Onun isə əlində heç bir qovluq yox idi. Bu anladırdı ki, danışıqlar bizim üçün fiaskodur, sənədlər imzalanmayacaq". Bu etiraf bir daha göstərir ki, diplomatik danışıqlarda əsas amil siyasi liderin intellektual gücü və strateji uzaqgörənliyidir. Ermənistanın bu görüşdən gözləntiləri iflasa uğradı, çünki Azərbaycan tərəfi onun yaratmağa çalışdığı "mərhələli həll" modelini qəbul etmədi. Bu hadisə bir daha təsdiqlədi ki, münaqişələrin həllində hüquqi normativlər və siyasi rasionalizm bir-birini tamamlamalıdır, əks halda, əldə olunan nəticələr yalnız illüziya xarakteri daşıyacaq.

Heydər Əliyev Ki-Uest danışıqlarında altı nəfərlik diplomatik və siyasi cəbhəyə qarşı təkbaşına mübarizə apararaq Azərbaycanın milli maraqlarına zidd olan istənilən razılaşmanı qətiyyətlə rədd etdi. Onun strateji iradəsi və diplomatik intellekti bu müzakirələrdə özünün ən parlaq təzahürünü tapdı. ABŞ Prezidenti Corc Buş Heydər Əliyevin siyasi uzaqgörənliyinə, danışıqlardakı prinsipial mövqeyinə və qlobal geosiyasi proseslərə təsir imkanlarına heyran qaldığını açıq şəkildə etiraf edib. Bu görüş, eyni zamanda ATƏT-in Minsk qrupunun növbəti fiaskosu kimi beynəlxalq diplomatiya tarixində yer aldı.

Minsk qrupu uzun illər ərzində formal varlığını qorusa da bu institutun vasitəçilik missiyası əslində prosesin idarəolunmaz axarına buraxılması strategiyasına əsaslanırdı. Həmsədrlər "prezidentlər nə barədə razılığa gəlsələr, bu, ATƏT üçün məqbul olacaqdır" kimi qeyri-müəyyən və məsuliyyətsiz bir yanaşma sərgiləyərək faktiki olaraq normativ vasitəçilik funksiyasından imtina etdilər. Halbuki vasitəçilik institutu yalnız neytrallıq prinsipi ilə deyil, eyni zamanda münaqişənin həllinə yönəlik təşəbbüskar və istiqamətləndirici rol oynamalı idi. İkinci Qarabağ müharibəsinin nəticələri Minsk qrupunun tarixi bir anaxronizmə çevrildiyini sübut etdi.

Ki-Uest danışıqları əslində sülh sazişinin imzalanması üçün ən rasional imkanlardan biri idi. Lakin Ermənistan qeyri-konstruktiv və maksimalist mövqe sərgiləyərək prosesi iflic vəziyyətinə saldı. Nəticədə münaqişə 2020-ci ilə qədər həll olunmamış qaldı. ABŞ Dövlət Departamentinin bu ilin fevralında Ki-Uest görüşünə dair məxfi sənədlərin ictimaiyyətə açması bu məsələyə marağı yenidən gündəmə gətirdi. Azərbaycan bu konseptual çərçivədən yalnız dövlətlərarası birbaşa danışıqlar mexanizmini gücləndirmək üçün istifadə etmişdi. Bu yanaşma isə öz növbəsində münaqişənin beynəlxalq hüquq müstəvisində dövlətlərarası ərazi mübahisəsi kimi təsnif edilməsinə zəmin yaratmışdı.

Minsk qrupunun və Ermənistanın strateji məqsədi "Dağlıq Qarabağın statusu" məsələsini süni şəkildə beynəlxalq müzakirələrdə saxlamaq, bununla da Azərbaycanın suveren hüquqlarına meydan oxumaq idi. Bu siyasət, beynəlxalq hüququn fundamental prinsiplərinə - dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə zidd olmaqla yanaşı, regionda uzunmüddətli qeyri-müəyyənlik yaratmağa xidmət edirdi. Azərbaycan üçün bu yanaşma tamamilə qəbuledilməz idi, çünki "status" anlayışı Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş siyasi manipulyasiya vasitəsi idi.

Ulu öndər Heydər Əliyevin diplomatik doktrinası yalnız status-kvonun qorunması deyil, həm də Azərbaycanın tarixi torpaqlarını geri qaytarmaq, beynəlxalq hüququn prinsipial müddəalarını siyasi alətə çevirmək üzərində qurulmuşdu. Bu gün məhz həmin diplomatik kursun nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etmişdir.

Beynəlxalq münasibətlər nəzəriyyəsi prizmasından yanaşdıqda Ermənistanın bu illər ərzində yürütdüyü siyasət əsasən revizionist yanaşma ilə izah oluna bilər. Haylar beynəlxalq hüquq normalarını dəyişdirmək və faktiki vəziyyəti öz maraqlarına uyğunlaşdırmaq üçün geosiyasi müttəfiqlərinin dəstəyinə arxalanırdı. Lakin Azərbaycan, konstruktiv və praqmatik yanaşma sərgiləyərək beynəlxalq hüquq və hərbi-strateji güc balansının vəhdəti əsasında öz milli maraqlarını təmin etdi. Bakıda keçirilən məhkəmə prosesləri artıq bu tarixi prosesin hüquqi nəticələrini formalaşdırır. Bir zamanlar münaqişə tərəfi kimi təqdim olunan qondarma rejimin nümayəndələri indi beynəlxalq hüququn normaları çərçivəsində mühakimə edilirlər.

Heydər Əliyevin uzaqgörən siyasi irsinin daha bir mühüm nəticəsi odur ki, Azərbaycan artıq Qərbi Azərbaycan, Zəngəzur, Göyçə mahalı kimi tarixi torpaqlarını da beynəlxalq gündəmə gətirmək imkanına sahibdir. Beləliklə, Ki-Uest görüşünün nəticələri Azərbaycanın diplomatik zəfərinin əsas mərhələlərindən biri, Ermənistanın isə strateji məğlubiyyəti kimi tarixdə əbədi həkk olunub. Bu, siyasi fəlsəfənin güc və hüquq münasibətləri ilə bağlı klassik postulatlarını, yəni sübuta ehtiyac olmayan həqiqətləri bir daha təsdiqləyir: beynəlxalq sistemdə uzunmüddətli uğurun açarı yalnız hərbi gücdə deyil, həm də hüquqi və diplomatik qətiyyətdədir.

**Tacir SADIQOV,**
**"Respublika".**